

# İftixar duyğusu

Hörmətli Vətən oğlu Şəmistan Nəzirli!

Sizin tədqiqatlarınızı maraq və minnətdarlıq hissi ilə müntəzəm izləyirəm.

Mən bütün varlığı ilə xalqa bağlı, onun kədəri, sevinci ilə yaşayan insanları demirəm, ürəyinin yalnız bircə teli xalqa bağlı olub, xalq məfhumunu dərk etməyə qadir ola bilən hər kəs bu tədqiqatlar üçün Sizə minnətdar olmalı, bu müqəddəs, çətin işdə Sizə imkanı həddində kömək əlini uzatmalıdır. Əsrimizin əvvəlində və ötən əsrdə yaşamış hərbi sərkərdələrimiz haqqındakı tədqiqatınız nə qədər qiymətlidir.

Bu parçanmış, fəlakətlər görmüş xalqın nə qədər şücaətli, mütəfəkkir sərkərdələri olub. Onların şəkillərindən uzun müddət gözümü çəkə bilmədim. Həm iftixar duyğusu yaşadım, həm də bu milli qəhrəmanların taleyinə ağladım.

Firidun bəy Köçərli və general oğullarımız haqqındakı tədqiqatlarınız məni Sizin ünvanınıza kiçik bir şeir yazmağa sövq etdi.

Azərbaycan ədəbiyyat tarixini nəsillərə xatirə qoymuş iki mötəbər şəxsiyyətin - Firidun bəy Köçərlinin və Mirzə Hüseyn Əfəndi Qayıbovun kitablarını açarkən, onların ruhuna rəhmət oxuyur və Sizə uzun ömür, əbədi xalq hörməti arzudayıram. Qələm sahibləri ürəkləri ilə yaşayırlar. Onların ən böyük dövləti xalq hörmətidir.

Nə Firidun bəy Köçərli, nə Mirzə Hüseyn Əfəndi Qayıbov, nə də görkəmli sərkərdələrimiz Səməd bəy Mehmandarov, Əliağa Şıxlinski, İbrahim ağa Vəkilov, Həbib bəy Səlimov və Yadigarov qardaşları haqqında biz öz borcumuzu hələ verməmişik. Nə onların təntənəli yubileylərini keçirmiş, nə də onların həyatını, milli duyğularını tədqiq edərək, haqqında nəsillərə dərin məlumat vermişik. Yəqin ki, bu şərəfli vəzifə də Siz tədqiqatçıların, xalqımızın ziyalılarının və dövlətimizin üzərinə düşür.

Əziz oğlumuz, qardaşımız, yorulmaz tədqiqatçı Şəmistan Nəzirli!

Siz əsl vətənpərvər, özünü xalq işinə təmənnasız həsr etmiş ziyalısınız. Siz mədəniyyət və hərb tariximizin səhifələrində yeni çıraqlar yandırır, işıqlı nə varsa, onları xalqa qaytarmağa, yaşatmağa çalışırsınız, onları yaşadırsınız.

Əziz Şəmistan müəllim! Sizi bu əvəzsiz xidmətiniz yaşadacaqdır. Sizə yeni yaradıcılıq müvəffəqiyyətləri, uğurlu yollar!

**Dərin hörmət, minnətdarlıq hissilə:**

***Mirvarid DİLBAZİ,***
***Xalq şairi***
***8 iyun 1985-ci il.***

Kredo 2019.- 18 aprel.- S.1.